# AZƏRBAYCAN DİLİ

FƏNNİ ÜZRƏ ELEKTRON DƏRS VƏSAİTİ

# II.Leksika

# II.Leksika

Söz dilin əsas vahididir. Dildəki sözlərin hamısı birlikdə dilin lüğət tərkibini, yəni leksikasını təşkil edir.
Dil haqqındakı elmdə dilin lüğət tərkibindən bəhs edən bölmə **leksikologiya** adlanır.
Hər bir sözün ifadə etdiyi mənaya onun leksik mənası deyilir.

# II.Leksika

- Sözlərin leksik mənası izahlı lüğətlərdə öz ifadəsini tapır
  - **Boran –** küləkli qar və ya yağış, çovğun, qasırğa.
- Sözlərin qrammatik mənası da olur.
  - **Boran** – isim, adlıq hal
- Sözlərin düzgün yazılış qaydaları orfoqrafiya lüğətlərində əksini tapır.
- Düzgün tələffüz qaydaları orfoepiya lüğətində əksini tapır.

| | |
|---|---|
| İzahlı lüğətlər | • Sözlərin leksik mənası |
| orfoqrafiya lüğətləri | • Sözlərin düzgün yazılış qaydası |
| orfoepiya lüğətləri | • Sözlərin düzgün tələffüz qaydaları |

# II.Leksika

## 1.Sözün həqiqi və məcazi mənası

# 1.Sözün həqiqi və məcazi mənası

## Sözün həqiqi mənası

- 1. Uşaq **yatdı**
- 2. Oğlan **gizləndi**
- 3. Gözəl **qız**
- 4. Polad **balta**
- 5. İti **bıçaq**

## Sözün məcazi mənası

Çox zaman insanlara məxsus müəyyən hərəkətlər cansız əşyalara aid edilir.

- 1. Külək **yatdı**
- 2.Günəş **gizləndi**
- 3. Gözəl **hərəkət**
- 4. Polad **iradə**
- 5. İti **göz**

# II.Leksika

2.Təkmənalı və çoxmənalı sözlər

# Təkmənalı və çoxmənalı sözlər

## Təkmənalı

Yalnız bir leksik mənası olan sözlərə təkmənalı sözlər deyilir

**Təyyarə, avtobus, yaşıl, moruq**

## Çoxmənalı

Eyni leksik məna ilə bağlı bir-birinə yaxın müxtəlif mənaları bildirən sözə çoxmənalı söz deyilir. Bir-birinə oxşar əşyalar, yaxud oxşar əlamət və hərəkət bildirir.

# Çoxmənalı sözlər

- Diş
  - İnsanın
  - Heyvanın
  - Çarxın
- Ağız
  - Yolun
  - Qazanın
  - Quşun
- Üz
  - Adamın
  - Südün
  - Yorğanın
- Qaş
  - İnsanın
  - üzüyün
- Qol
  - Çayın
  - İnsanın
- Burun
  - İnsanın
  - Gəminin
  - Coğrafi